Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

İLHAM RƏHİMLİ

# AZƏRBAYCAN TEATR ENSİKLOPEDİYASI

ÜÇ CİLDDƏ

III
CİLD

Azərbaycan Milli
Kitabxanası

BAKI – 2017



## SOLTAN HACIBƏYOV

*(8.5.1919, Şuşa – 19.9.1974, Bakı). Bəstəkar, pedaqoq, musiqi xadimi.*

Soltan İsmayıl oğlu Hacıbəyov 1941 – 1946-cı illərdə Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsində, Üzeyir Hacıbəylinin və Boris Zeydmanın sinfində təhsil alıb. 1947-ci ildə Moskva Konservatoriyasında Dmitri Şostakoviçin sinfində təcrübə keçib.

1938–1940-cı illərdə Azərbaycan Dövlət Musiqili Komediya Teatrında dirijor, 1940–1942-ci illərdə Sazçı Qızlar Ansamblının rəhbəri, 1948 – 1956-cı illərdə Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri və 1955–1962-ci illərdə direktoru işləyib. 1953–1968-ci illərdə Azərbaycan Bəstəkarlar İttifaqının katibi olub. 1948-ci ildən Azərbaycan Dövlət Konservatoriyasında pedaqoji fəaliyyət göstərib. 1969–1974-cü illərdə bu elm ocağının rektoru, 1964-cü ildən professor idi. 1952-ci ildə Stalin mükafatına (sonralar SSRİ Dövlət mükafatı adlanıb) və 1970-ci ildə Respublika Dövlət mükafatına layiq görülüb. Musiqinin müxtəlif janrlarında əsərləri var. 26 aprel 1958-ci ildə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, 24 may 1960-cı ildə Xalq artisti və 15 avqust 1973-cü ildə SSRİ Xalq artisti fəxri adları ilə təltif olunub.

Bəstəkar «Gülşən» baletini (1950), «Qızılgül» (libretto müəllifi Məhərrəm Əlizadə. 1941) musiqili komediyasını yazıb.

Soltan Hacıbəyov Akademik Milli Dram Teatrında Zeynal Xəlilin «Qatır Məmməd», Səməd Vurğunun «İnsan», Sabit Rəhmanın «Aşnalar», Səttar Axundovun «Zərif tellər», Sabit Rəhmanın «Əliqulu evlənir», Həsən Seyidbəylinin «Bağlı qapılar», Mehdi Hüseynin «Alov», Mirzə İbrahimovun «Kəndçi qızı», İlyas Əfəndiyevin «Mənim günahım», Gənc Tamaşaçılar Teatrında Səttar Axundovun «Çətin dərə», Abdulla Şaiqin «Vətən», Cəlal Məmmədov və Mirpaşa Miriyevin «Tərlan», Cəfər Cabbarlının «Aydın», «Yaşar», Azərbaycan Dövlət Rus Dram Teatrında Sabit Rəhmanın «Xoşbəxtlər» əsərlərinin tamaşalarına musiqi bəstələyib.

Məzarı Bakıda Fəxri xiyabandadır.



***«Gülşən», Soltan Hacıbəyov.***
*Gülşən – Qəmər Almaszadə*